## *Milli Məclis Sədrinin birinci müavini:*

# "Xalq Müzəffər Ali Baş Komandanı ilə qürur duyur"



Erməni hərbi birləşmələri üzərində qazanılmış tarixi Qələbədən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri dövlət başçısının sevinc hisslərini, ilk növbədə, xalqla bölüşmək arzusundan irəli gəlir. Onun həmin bölgələrdə yaşayan əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması isə xalqın öz Liderinə, müzəffər sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib.

Əli Hüseynli bildirib: "Bu, həm də onu göstərir ki, təhlükələrdən və çətinliklərdən çəkinməyən, öz xalqının maraqları naminə qətiyyətlə mübarizə aparan Prezident İlham Əliyev cəsarətli addımları və siyasi iradəsi ilə seçilən Liderdir. Bütün dövrlərdə və yaşanan hadisələrdə, ən ağır vəziyyətlərdə belə öz xalqının yanında olan Prezident hər bir işdə xalqın dəstəyinə arxalanır, ona güvənir. Ordunun qüdrətinə inam hissi, həmçinin ölkədəki milli və siyasi həmrəylik yaşadığımız Qələbənin ideoloji əsasına çevrilərək Prezidentin "Biz birlikdə güclüyük!" şüarı altında xalqın dəmir yumruq kimi birləşməsini təmin edib. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyətinin Vətən müharibəsinin ilk günlərində yaydığı birgə bəyanat da bu baxımdan böyük əhəmiyyət kəsb edir".

Komitə sədrinin sözlərinə görə, öz işğalçılıq siyasətinin qurbanına çevrilmiş və üsyana qalxmış insanların qəzəbindən qorxub gizlənən Ermənistanın üzdəniraq baş naziri Paşinyandan fərqli olaraq, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, bu gün də öz xalqının yanındadır. Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına tarixi səfər etməklə "Qarabağ Azərbaycandır və nida" ifadəsinin müəllifi kimi bir daha xalqa verdiyi bütün vədlərə sadiqliyini nümayiş etdirdi. Bununla da siyasətdə, diplomatiyada və hərbi strategiyada Prezident İlham Əliyevin adı bu zəfərin müəllifi kimi tarixə yazıldı.

"Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm", - söyləyən Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə, eyni zamanda, hər bir hərbçinin Ali Baş Komandanı olduğunu sübut etdi. Azərbaycan Ordusu ilə döyüş meydanında məsuliyyətli davranışı nəticəsində Qələbənin mənəvi çəkisini daha da artırmış oldu. Bu, ilk növbədə, Müzəffər Ali Baş Komandanın beynəlxalq hüquq normalarına hörmətindən irəli gələn siyasi və hərb mədəniyyətinin təzahürüdür. Çünki erməni əsgərindən fərqli olaraq, mülki əhaliyə atəş açmayan, məsuliyyətli davranış nümayiş etdirən, eyni zamanda, humanist dəyərləri qoruyan bu ordu bölgədə sülhün və tərəqqinin təminatçısına çevrilmiş güclü dövlətin Silahlı Qüvvələridir.

Əli Hüseynli vurğulayıb ki, səfər zamanı Xudafərin körpüsünü ziyarət etməsi dövlət başçısının şərəfli Azərbaycan tarixinə və mədəni irsinə münasibəti baxımından rəmzi məna daşıyır və ibrətamizdir. Müzəffər Ali Baş Komandanın ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birgə işğaldan azad olunmuş ərazilərə səfəri Qələbəni şübhə altına salmaq istəyən bədxahlara sanballı bir mesaj kimi bütün mülahizələrə nöqtə qoymuş oldu.

Azərbaycan.- 2020.-18 noyabr.- S.11.